**«TƏSDİQ EDİLMİŞDİR»**

Azərbaycan Respublikasının Prezidenti

yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi

Əmr 065

«10» may 2000-cı il

Sədr _______________ H. Babayev

# Azərbaycan Respublikasının qiymətli kağızlar bazarında reklam haqqında Q A Y D A L A R

I. Ümumi müddəalar.

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının 14 iyul 1998-ci il tarixli «Qiymətli kağızlar haqqında», 3 oktyabr 1997-ci il tarixli «Reklam haqqında», 30 noyabr 1999-cu il tarixli « İnvestisiya Fondları haqqında», 12 iyul 1994-cü il tarixli «Səhmdar cəmiyyəti haqqında » Qanunları, Azərbaycan Respublikasının Prezidentinin 26 iyul 1999-cu il tarixli, 161 №-li «Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli kağızlar üzrə Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında» Fərmanı əsasında hazırlanmışdır.

1.2. Qaydalar Azərbaycan Respublikasının qiymətli kağızlar bazarında bütün növ qiymətli kağızların, emitentlərin,peşəkar iştirakçıların,özünütənzimləyən təşkilatların, qiymətli kağız sahiblərinin, bütün növ lotereyaların, onları təşkil edən və keçirən şəxslərin, veksel uçotu təşkilatlarının və digər iştirakçıların reklamının sifarişi, istehsalı, yayımı üzrə tələbləri, məhdudiyyətləri, xüsusiyyətləri, nəzarət və məsuliyyəti müəyyən edir.

1.3. Qaydaların müddəaları Azərbaycan Respublikasının qiymətli kağızlar bazarında fəaliyyət göstərən şəxslərə, reklam sifarişi, istehsalı, yayımı, agentliyi fəaliyyəti ilə məşğul olan reklam fəaliyyəti subyektlərinə, reklam fəaliyyəti sahəsində dövlət nəzarətini həyata keçirən dövlət orqanlarına, reklam fəaliyyətinə özününəzarəti həyata keçirən reklamçıların peşəkar cəmiyyətləri, birlikləri, ittifaqları və assosiasiyalarına şamil edilir.

II. Qiymətli kağızlar bazarında reklama dair tələblər.

2.1. Qiymətli kağızlar bazarında reklam – qiymətli kağızlar, lotereya fəaliyyəti, qiymətli kağızlar bazarının iştirakçıları olan şəxslər, onların qiymətli kağızlarla əlaqədar fəaliyyəti haqqında maraq formalaşdırmaq, onların təqdim olunmasına, satılmasına, fəaliyyətlərinin həyata keçirilməsinə kömək göstərmək məqsədi ilə yayılan məlumatdır.

2.2. Qiymətli kağızların reklamında onların növü, emitenti, buraxılışının dövlət qeydiyyat nömrəsi, qeydiyyat orqanının adı və emissiya prospektindəki məlumatlar

ilə tanış olmaq üçün yer (ünvan) və vaxt göstərilməlidir.

2.3. Reklam olunan qiymətli kağızların emissiya prospektinə , yerləşdirilməsi şərtlərinə dəyişikliklər edildikdə, bu müvafiq reklam yayımında öz əksini tapmalıdır.

2.4. Qiymətli kağızların yerləşdirilməsi dayandırıldıqda, emissiya baş tutmamış hesab edildiyi halda, emitent ləğv edildikdə reklam sifarişçisi bu barədə kütləvi informasiya vasitələrində elan verməli və reklam yayımı dayandırılmalıdır.

2.5. Qiymətli kağızlar bazarında xüsusi razılıq (lisenziya) alınması tələb olunan fəaliyyəti həyata keçirən şəxsin reklam sifarişi zamanı reklamın istehsalçısı, yayıcısı və agentinin mütləq tələbi ilə sifarişçi tərəfindən onlara müvafiq xüsusi razılıq (lisenziya) təqdim olunması məcburidir və reklamda xüsusi razılığın (lisenziyanın) nömrəsi,tarixi və lisenziyanı verən orqanın adı göstərilməlidir.

2.6. Şəhər, kənd, digər yaşayış məntəqələrində qiymətli kağızlarla bağlı küçə reklamını müvafiq olaraq şəhər-rayon icra hakimiyyəti orqanları və ya bələdiyyələrin icazəsi ilə yerləşdirmək olar.

2.7. Müvafiq icra hakimiyyəti orqanının tabeçiliyində olan yol və yol ətrafı zonalarda qiymətli kağızlarla bağlı reklam müvafiq icra hakimiyyəti orqanının razılığı ilə yerləşdirilir.

2.8. Qiymətli kağızlarla bağlı reklamların küçə və yollarda yerləşdirilməsi üçün haqq yerli özünüidarə orqanlarının təsdiq etdikləri qaydada və miqdarda ödənilir.

2.9. Qiymətli kağızlarla bağlı reklamın bina, tikili və digər obyektlərdə yerləşdirilməsi onların mülkiyyətçisi ilə bağlanmış müqavilə əsasında həyata keçirilir.

2.10. Dəmir yolu,metropoliten,hava və su nəqliyyatı vasitələrində qiymətli kağızlarla bağlı reklamın yayımı həmin nəqliyyat vasitələrinin mülkiyyətçiləri ilə bağlanmış müqavilələr əsasında və müvafiq sahədə dövlət idarəçiliyini həyata keçirən orqanın razılığı ilə həyata keçirilir.
Digər nəqliyyat vasitələrində qiymətli kağızlarla bağlı reklamın yayımı həmin nəqliyyat vasitələrinin mülkiyyətçiləri ilə bağlanmış müqavilələr əsasında və Azərbaycan Respublikası DİN-in Dövlət Yol Polis İdarəsinin razılığı ilə həyata keçirilir.
2.11. Poçt göndərişlərində qiymətli kağızlarla bağlı reklamın yayımı Azərbaycan Respublikası Rabitə Nazirliyinin razılığı ilə həyata keçirilir.

III. Qiymətli kağızlar bazarında reklam üzrə məhdudiyyətlər

3.1. Qiymətli kağızların reklamının istehsalı, yerləşdirilməsi və yayımında

aşağıdakılara yol verilmir:

-- reklam olunan qiymətli kağızlara birbaşa aid olmayan kəmiyyət xarakterli məlumatların yayılmasına.

-- buraxılışı üçün dövlət qeydiyyatı zəruri olan qiymətli kağızların dövlət qeydiyyatına alınmadan reklam edilməsinə.

-- adi səhmlər üzrə dividendlərin ödənilməsi və məbləği haqqında təminatlar verilməsinə.

--qiymətli kağızların məzənnəsinin dəyişməsi üzrə proqnozların elan edilməsinə.

-- reklamda müqavilə şərtləri sadalandıqda, bu şərtlərdən hər hansı birinin göstərilməməsinə.

-- reklam yayımında qiymətli kağızların və onların satışından əldə edilən həqiqi və ya gözləniləsi gəlir, həmçinin alışın şərtləri haqqında reklam istehlakçısında yanlış təsəvvürün yaradılmasına .

--digər emitentlərin, qiymətli kağızların, onlarla fəaliyyət göstərən şəxslərin, qiymətli kağızlar üzrə peşəkar fəaliyyətin digər növlərinin , reklam olunan qiymətli kağızlardan istifadə etməyən şəxslərin nüfuzdan salınmasına yönəlmiş ifadə və təsvirlərə.

-- qiymətli kağızlar bazarında analoji fəaliyyətlə məşğul olan digər şəxslərin, yaxud analoji qiymətli kağızların həqiqi, yaxud ehtimal olunan nöqsanlarını göstərməklə qeyri-etik müqayisə apararaq reklamdan haqsız rəqabət məqsədilə istifadə edilməsinə.

--reklamda əhəmiyyətli informasiyanın müəyyən hissəsini qəsdən gizlətməklə istehlakçının yanlış istiqamətləndirilməsinə.

--qiymətli kağızların təyinatı, istifadə şərtləri, standartlara uyğunluğu, emissiya olunduğu yer, satışı, geri satın alınması, dəyişdirilməsi və onlarla əlaqədar xidmətlər göstərilməsi,qiymətli kağızlar üzrə təminat öhdəliyi,qiymətli kağızların, emitent və peşəkar iştirakçıların reytinqi,onların diplom və mükafatları alması, qiymətli kağızlarla əlaqədar tədqiqatların nəticələri, elmi və digər dərc olunmuş materiallar, qiymətli kağızlar bazarı üzrə statistik məlumatlar haqqında həqiqətə uyğun olmayan məlumatların əks etdirilməsinə.

--mətnində, görünüşündə,səslənməsində irqlər, millətlər,peşələr, sosial kateqoriyalar, yaş qrupları, cinslər, dillər barəsində, yaxud fiziki şəxslərin dini, fəlsəfi, siyasi və digər formada əqidələrinə, humanizm və əxlaq normalarına zidd olan təhqiramiz sözlər, müqayisələr və obrazların işlədilməsinə.

-- radio, tele, audio,video, kino, nəşr və digər məhsullarda reklam yayımında istehlakçının şüuruna özünün dərk etmədiyi şəkildə təsir edən üsullar və vasitələrin ( xüsusi videoparçalar, ikili səsyazma və sairə ) tətbiq edilməsinə.

-- yetkinlik yaşına çatmayanların şüuruna təsir göstərməklə, onların valideynlərini və digər şəxsləri reklam olunan qiymətli kağızların, lotereya biletlərinin alınmasına məcbur etməyə yönəldilməsinə, yetkinlik yaşına çatmayanların həyat və səhhəti üçün təhlükəli yerlərdə və hallarda nümayiş etdirilməsinə, yetkinlik yaşına çatmayanlara bilavasitə aid olmayan qiymətli kağızların, lotereya biletlərinin reklamında onların obrazının yaradılmasına, habelə reklamda valideynlərə,müəllim və tərbiyəçilərə hörmətsizlik əks edən ifadə və təsvirlərin işlədilməsinə .

--qiymətli kağızlar bazarının peşəkar iştirakçısının reklamında onun fəaliyyət növü kimi eyni zamanda məşğul olmasına yol verilməyən peşəkar fəaliyyət növlərinin birgə göstərilməsinə .

-- səhmdar cəmiyyətin səhmdarına onda olan səhmlərin sayına mütənasib miqdarda yeni emissiya olunan qiymətli kağızlar almaqda üstün hüquq verilməsi, habelə emitentin qiymətli kağızların qeyri-rezidentlər tərəfindən alınması üzərində məhdudiyyətlər qoyması halları istisna olmaqla, korporativ qiymətli kağızların reklamında potensial investorların bir qrupuna digərlərinə qarşı satışda üstünlük verilməsi barədə müddəaların yerləşdirilməsinə.

3.2. Qeyri-reklam xarakterli nəşr, audio, video, kino məhsullarında, informasiya vasitələrində qiymətli kağızın, emitentin, lotereyanın, qiymətli kağızlar bazarının iştirakçısının reklamı yayıldıqda, bu barədə yayımdan əvvəl xəbərdarlıq edilməlidir. Belə material hissə-hissə yayıldıqda reklam haqqında qeyd hər bir hissədə olmalıdır.

## IV. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının və qiymətli kağızların ayrı-ayrı növlərinin reklamının xüsusiyyətləri.

4.1. Kredit təşkilatının depozit sertifikatının reklamında sertifikatın buraxıldığı valyuta, kredit təşkilatının adı, ünvanı, depozit üzrə faiz dərəcələri barədə məlumat əks olunmalıdır.

4.2. İstiqrazın reklamında onun emitenti, ödənilmə müddəti, faizi, ödənilmə şərti barədə məlumat əks olunmalıdır.

4.3. İnvestisiya fondunun reklamında fondun fəaliyyətinə lisenziyadan əlavə, habelə fondun müdiriyyətinin (müdirinin) qiymətli kağızların idarə olunması

fəaliyyəti üzrə lisenziyası barədə qeyd olmalıdır.

4.4. Reyestrsaxlayıcı peşəkar fəaliyyətini həyata keçirən hüquqi şəxsin reklamında qeyd edilməlidir ki, reyestrsaxlayıcı emitentin təsis sənədlərinin müddəalarına və qanuna zidd olan sərəncamını icra etməməlidir.

4.5. Bütün növ qiymətli kağızların blanklarının hazırlanması fəaliyyəti ilə məşğul olan şəxsin reklamında qiymətli kağız blankının qoruyucu əlamətlərlə təhciz olunması təminatı barədə məlumat verilməlidir.

4.6. Lotereyanın reklamında alıcının uduşu əldə etməsi əminlik şəklində yox, yalnız ehtimal formasında qeyd edilə bilər. Reklamda ən yüksək məbləğli uduşla bərabər, ən aşağı məbləğli uduş da göstərilməlidir.

Lotereya oyununun reklamında bu Qaydaların 2.5-ci bəndində göstərilən məlumatlardan əlavə,habelə lotereyanın adı və növü göstərilməlidir. Lotereya təşkilatçısı reklamda Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinə təqdim etdiyi lotereyanın keçirilməsi şərtləri çərçivəsində digər zəruri hesab etdiyi məlumatı da yerləşdirə bilər.

Lotereya əmtəələrin satışı ilə müşayiət olunursa və həmin əmtəələr sertifikatlaşdırılmalıdırsa, reklamda «mütləq sertifikatlaşdırılmalıdır» qeydi olmalıdır.

Lotereya spirtli içkilərin, tütün məmulatlarının satışı ilə müşayiət olunduqda onun reklamında aşağıdakılara yol verilmir:

-- spirtli içkilərin içilməsi və tütün məmulatının çəkilməsi prosesinin nümayiş etdirilməsinə.

-- spirtli içkilər içilməsi və tütün məmulatının çəkilməsinin ictimai, idman və şəxsi uğur qazanmaqda, yaxud fiziki və ya psixi halın yaxşılaşmasında müsbət rolu olması təəssüratının yaradılmasına.
-- spirtli içki və tütün məmulatından imtina edənlərin nüfuzdan salınmasına yönəlmiş ifadə və təsvirlərə.

-- lotereyanın reklamı spirtli içki və tütün məmulatları və onların satışı, uduş, mükafat və sair formada verilməsi ilə əlaqədar olduqda, həmin reklamın təhsil və təlim-tərbiyə müəssisəsində və ondan 100 metrədək məsafədə yayımına .

4.7. Depozitarinin reklamında deponentin adı, onun hesabının vəziyyəti, deponentin hesabı üzrə aparılmış əməliyyat haqqında, habelə depozitara verilərkən məxfiliyinin təmin edilməsi yazılı şəkildə göstərilmiş digər məlumat yayımlana bilməz.

V. Qiymətli kağızlar bazarında reklam fəaliyyətinə nəzarət və məsuliyyət.

5.1. Azərbaycan Respublikasının qiymətli kağızlar bazarında reklam fəaliyyətinə nəzarət dövlət nəzarəti və özününəzarət formalarında həyata keçirilir.

5.2. Qiymətli kağızlar bazarında reklam fəaliyyətinə özününəzarəti qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının, reklamçıların peşəkar cəmiyyətləri, birlikləri, ittifaqları həyata keçirir.

Onlar reklam haqqında normativ hüquqi aktların hazırlanmasına cəlb edilə, reklamın qanunvericilik aktlarına uyğunluğunu yoxlamaq məqsədilə onun müstəqil ekspertizasını keçirə, rəy və təkliflərini reklam sifarişçilərinə, istehsalçılarına və yayıcılarına göndərə, reklam haqqında qanunvericiliyə riayət edilməsinə nəzarət etmək üçün müvafiq dövlət orqanları tərəfindən cəlb edilə bilərlər.

5.3. Qiymətli kağızlar bazarının subyekti olan reklam sifarişçisi reklam istehsalçısına reklam olunan qiymətli kağızların, onun emitentinin, qiymətli kağızlarla bağlı xidmətlərin, lotereyalar və qiymətli kağızlarla bağlı digər fəaliyyət barəsində təqdim etdiyi məlumatın məzmununa görə qanunvericiliyə müvafiq məsuliyyət daşıyır.

Reklam istehsalçısı qiymətli kağızlarla bağlı reklamın istehsalı sahəsində, bu qaydaların pozulmasına görə, reklam yayıcısı isə reklamın yayılma yeri, vaxtı və vasitələri sahəsində bu qaydaların pozulmasına görə məsuliyyət daşıyır.

5.4. Qiymətli kağızlar bazarında reklam haqqında qanunvericiliyin pozulması faktları aşkar edildikdə, reklam fəaliyyətinin qanunu pozmuş subyekti müəyyən müddət ərzində təkzib (əks reklam) həyata keçirməyə borcludur. Təkzib (əks reklam) haqsız reklamın yayıldığı müddət ərzində davamiyyətli, həmin səciyyəli, texniki üsullardan istifadə olunaraq həmin və ya müvafiq reklam daşıyıcısı vasitəsilə yayılmalıdır.

5.5. Haqsız reklam olunan qiymətli kağızın, onun emitentinin, qiymətli kağızlar bazarının peşəkar iştirakçısının, lotereyanın, onun təşkilatçısının, qiymətli kağızlarla fəaliyyət göstərən digər şəxslərin, əmtəə və xidmətlərinin alınması nəticəsində istehlakçıya vurulmuş zərər təqsirkar şəxs tərəfindən tam həcmdə ödənilməlidir.

5.6. Qiymətli kağızlar bazarında reklam haqqında qaydaların pozulmasına görə təqsirli şəxslər qanunvericilikdə müəyyən olunmuş hallarda və qaydada cərimə olunur.

5.7. Qiymətli kağızlar bazarında fəaliyyət göstərən şəxslərin mənliyinə, işgüzarlıq nüfuzuna, hüququna xələl gətirə bilən (böhtan, iftira və s. xarakterli) reklam

yayıldığı təqdirdə o, reklam sifarişçisinə, istehsalçısına və yayıcısına qarşı məhkəmədə iddia qaldıra bilər.

5.8. Qiymətli kağızlar bazarında reklam haqqında qaydaları pozmağa görə hüquqi və fiziki şəxslərin qiymətli kağızlar bazarında peşəkar və lotereya fəaliyyətilə məşğul olması üçün xüsusi razılığı (lisenziyası) Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən dayandırıla və ya ləğv edilə bilər, habelə onlar qanunvericilikdə müəyyən edilmiş digər məsuliyyətə cəlb edilə bilərlər.

VI. Qaydaların qüvvəyə minməsi.

6.1. Bu Qaydalar təsdiq edildiyi gündən qüvvəyə minir.